AZƏRBAYCAN UĞRUNDA!

# HƏRBİ BİLİK

HƏRBİ ELMİ-NƏZƏRİ, PUBLİSİSTİK JURNAL

www.welcome.to\hbilik



## MƏN VƏTƏN ÜÇÜN DOĞULMUŞAM!

№6
2004



# AZƏRBAYCANDA ORTA ƏSRLƏR DÖVRÜNDƏ NİZƏLƏR

*Sevinc VAHABOVA*

* *

***Azərbaycanda orta əsrlər dövründə tətbiq olunan silahlar arasında nizə və onun növləri əhəmiyyətli yer tutur. Bu məqalədə Azərbaycan Tarixi Muzeyinin yeni tarix fondunda qorunan nizə və mizraq ucluqları haqqında məlumat vermək istəyirik.***

Soyuq silah növləri sırasında ilk silah nizə və döyüş yabaları olmuşdur (1, s. 6-7). Qobustan qaya rəsmlərində nizə və yaba ilə silahlanmış ovçuların təsvirlərinə rast gəlirik (1, s. 6). Mingəçevirdə aparılan qazıntılar zamanı e.ə. II minilliyə aid tunc yaba və nizə ucluqları tapılmışdır (2, ə.78-80).

Sapı olan batırıcı silah növlərinə nizə, süngü, mizraq və döyüş yabaları aid edilir. ***Nizə uzun sapı və onun üzərinə taxılmış döyüş ucluğu olan, həm piyada, həm də süvari döyüşçülər tərəfindən tətbiq edilən batırıcı silah növüdür*** (6, s. 38). Uzun və ağır olduğuna görə nizəni atmaq olduqca çətin idi. Bu səbəbdən nizə atılmaq üçün tətbiq olunmadı (3, s. 85).

Nizə ucluğu öz quruluşuna görə çox sadədir: ağac hissə, dəmir və yaxud polad ucluq, kəsər hissə olan lələk, sapın daxil olduğu boru, boru ilə lələk arasındakı nazik hissə və daha sonrakı dövrün nizə ucluqlarında olan almacıq - boyundakı yumru dairə.

Azərbaycanda qədim və orta əsr abidələrinin arxeoloji qazıntıları zamanı əsasən yarpaqşəkilli, rombvari, həm də dairəvi formalı nizə ucluqları aşkarlanmışdır (2, s. 80; 4, s. 78-79; 5, s. 54-55). Əksər nizə ucluqlarının uzunluğu 20-25 sm, ağır nizə ucluqlarının uzunluğu 60 sm-dək olmuşdur (3, s. 85-86).

VI-IX əsrlərdə nizə ucluqları öz böyüklüyü və formasına görə yastı, yarpaqşəkilli, üç-dörd künclü asimmetrik - romb, yarım oval formalı, uzadılmış beş və altıbucaqlı, tomar - yəni küt uclu və s. formasında olmuşlar. IX əsrdən XVI əsrin əvvəlinədək Azərbaycan dövlətlərində piyada və ağır silahlarla silahlanmış süvari (atlı) qoşununda uzun nizələr - yarpaqşəkilli və dördkünc formalı nizə ucluqları əsas silah sayılırdı (1, s. 274). Dahi Azərbaycan şairi ***Nizami Gəncəvi*** döyüşçünün silahını təsvir edərək qeyd edirdi: «Onun ağır nizəsinin dörd küncü var». N.Gəncəvinin müasiri, müsəlman cəngavəri ***Usamə ibn Munkiz*** qeyd edirdi ki, XII əsrdə döyüşçünün nizələri 6-8 metr uzunluğunda olurdu (1, s. 274).

XVI-XVII əsrlərdə tətbiq edilmiş nizə ucluqları əsasən yarpaqşəkilli və rombvari olmuşlar (7, s. 21).

Odlu silahların geniş tətbiq edilməsi nizələrin tədricən sıradan çıxmasına səbəb oldu və artıq XVIII əsrin əvvəllərində nizələr tətbiq edilmirdi (6, s. 39).

Süngü adı ilə yüngül nizələr hazırlanırdı. Quruluşuna görə nizəni xatırladan, lakin yüngül ağac növləri və ya qarğıdan düzəldilmiş və yüngül metal ucluğa malik süngü XIX əsrin əvvəllərinədək süvari hissələrdə tətbiq edilirdi (1, s. 275).

***Mizraq qısa yüngül sapı və onun üzərinə taxılmış yüngül döyüş ucluğu olan, əsasən süvarilər tərəfindən tətbiq edilən atma batırıcı silah növüdür*** (6, s. 40; 3, s. 85). Arxeoloji qazıntılar nəticəsində tapılmış mizraq ucluqlarının uzunluğu 8-9 sm-dir (2, s. 79). Sapla birlikdə mizrağın uzunluğu 1–1,5 sm-ə bərabərdir. Mizraqlar adətən atın yəhərinə bağlanan və «cərid» adı ilə bildirilən qında daşınırdı. Adətən belə qına 2-3 cərid yerləşdirilirdi (8, s. 92).

Döyüş yabası orta əsrlər dövründə istifadəsiz qalmış, qədim dövrdə isə sap və onun üzərinə taxılmış 2 və ya 3 dişli ucluqdan ibarət olmuşdur (6, s. 39; 9, s. 80).

XIV əsrdə Azərbaycanda nəinki yerli nizə və mizraqlardan, məsələn, qenderdən (türkcə göndər), kaqutdan (türkcə Kacut-qısa mizraq), həm gəlmə nizələrdən, məsələn, Yəmənin Əl-Hatt kəndində öz yüngüllüyü və keyfiyyətinə görə ən yaxşı bambuk növündən hazırlanan Hatti nizələrindən, Hindistan mizraqlarından, həm də bütün Şərqdə məşhur olan Həbəşistan nizələrindən istifadə edilirdi (1, s. 276).



Ümumiyyətlə, bütün Şərqdə olduğu kimi, Azərbaycanda da yüngül nizə ucluqları qiymətləndirilirdi. Ona görə də çox zaman nizələrin borularının içi boş düzəldilirdi. Ucluqlar adətən sadə poladdan hazırlanır, metal silindrik lülə ilə sona çatdırılırdı. Bu silindrik lülələr nizə sapı (taxtaları) ilə birləşirdi. Taxta seçimində onun materialı, uzunluğu, ələ yatımlığı şərtlənirdi.

Nizə ucluqlarının bəzədilməsinə də böyük diqqət yetirilir, onlar müxtəlif ornamentlərlə, təsvirlərlə naxışlanırdı.

Orta əsrlərdə Azərbaycan ərazisində unikal silah növü – zubin (jubin) tətbiq





edilirdi (1, s. 275). Tədqiqatçı S. Əhmədovun fikrincə, bu silah formasına görə döyüş yabasını, ölçü və çəkisinə görə mizrağı xatırladır. Həm batırıcı silah, həm də atma batırıcı silah kimi tətbiq edilmişdir (7, s. 21).

Zubinlər nizə ucluğundan 2–3 ləlєkli olması ilə fərqlənirdi. Zubin ucluğunun ləlєkləri hamar, düz, ya da dalğavari olurdu. Həmin ucluqlar çəkisinə görə daha yüngül alınır və iti sürəti ilə seçilirdilər. Buna görə də ucluğu atan döyüşçü onu daha uzaq məsafəyə atmaq imkanı qazanırdı.

***Şərqdə zubin daha çox Dəyləm vilayətinin (Xəzər dənizindən cənub-qərbdə) əhalisinin etnik silahı kimi tanınırdı.*** IX–XIII əsrlərdə müsəlman dövlətlərinin qvardiya hissələrində dəyləmli döyüşçülər xidmət etdiklərinə görə bu silah saray mərasimlərində iştirak edən döyüşçülərin parad silahı kimi populyarlıq qazanmışdı (8, s. 91; 5, s. 56).

Tarix elmləri namizədi S. Əhmədov tərəfindən təklif edilmiş saplı batırıcı silah növlərinin (nizə, süngü, mizraq, döyüş yabası) ucluqlarının təsnifat sxeminə əsasən onlar aşağıdakı əlamətlərə görə bölünürlər:

***1. Siniflərə – ucluğun materialına görə (metal, sümük, gil və s.);***

***2. Şöbələrə – ucluğun taxılma hissəsinin quruluşuna görə (boru ilə, mil ilə);***

***3. Qruplara – lələyin kəsikdə formasına görə (rombvari, asimmetrik-rombvari, üçbucaq, lansetvari və s.)***

Bu təsnifat sxeminə əsasən Azərbaycan Tarixi Muzeyinin yeni tarix fondunda qorunan ucluqların hamısı bir sinfə – metal ucluqlar sinfinə, bir şöbəyə – borulu ucluqlar şöbəsinə, bir qrupa – yastı ucluqlar qrupuna aiddir. Bu ucluqlar 4 tipə ayrılır:

**Tip 1. Dalğavari ikidişli mizraq**

Mizraq ucluğu. En kəsiyi yastıdır, enli ləlєkli, maili çiyinli, uzun borusu və iki dişi var. Kənarları dalğavari olan dişlər mərkəzdən ayrılır. Lələyin sonunda nəbati ornament fonunda quş, balıq təsvirləri və minalı medalyon qravürlənmişdir. Borusu yumru formada olub sona doğru enliləşir. Ucunda metal halqası, ləlєklə boru arasında almacıq var. Ümumi uzunluğu 51 sm-dir.

**Tip 2. Üçdişli mizraqlar**

Mizraq ucluğu. En kəsiyi yastıdır, üçdişlidir, mərkəzdən dişlər ayrılır, dişlərin ucları itibucaqlıdır. Kənardakı iki diş dalğavari, mərkəzi dişin qıraqları isə düz və hamardır. Hər üç dişin orta hissəsində qabarıq kanal var. Enli ləlєkli, maili çiyinlidir, uzun borusu var. Lələyin sonunda qızılı haşiyələnmiş nəbati ornament fonunda quş təsvirləri və dörd medalyonun içində insan büstlərinin fiqurları qravürlənmişdir. Lələyin uc hissəsində balaca rombun üzərində minalı naxışlar çəkilmişdir. Borusu yumrudur, üzərində çox zəif görünən minalı həndəsi xətlər və nəbati ornament çəkilmişdir. Borunun sonunda üzük formasında metal halqa var, ləlєklə boru arasında dairəvi kürəcik mövcuddur. Ümumi uzunluğu 57,7 sm, lələyin uzunluğu 36 sm, borunun uzunluğu 21,5 sm, lələyin eni 5,8 sm, (enli yerdə 7,5 sm), metal halqanın eni 0,5 sm-dir.

**Tip 3. Beşbucaqlı uzunsov nizə ucluğu**

Nizə ucluğu. En kəsiyi yastıdır, xəncər formasındadır. Enli lələyi, maili çiyinləri, uzun borusu var. Lələyin sonunda nəbati ornamentlər, medalyon qravürlənmişdir. Borusu yumrudur, aşağı hissəsi getdikcə enliləşir. Sonluqda yastı, üzük formasında enli metal halqası var. Ləlєklə boru arasında armuda oxşar almacıq var. Ümumi uzunluğu 51,5 sm, lələyin uzunluğu 28,5 sm, borunun uzunluğu 23 sm, lələyin eni 4 sm, borunun diametri 2,7 sm, metal halqanın qalınlığı 0,3 sm-dir.

**Tip 4. Asimmetrik rombvari nizə ucluğu**

Nizə ucluğu. En kəsiyində linzavari yastıdır, tiyəsi xəncərə oxşardır. İti ucu, enli lələyi, maili çiyinləri, uzun borusu var. Lələyin sonunda nəbati ornament fonunda quş təsviri qravürlənmişdir. Borusu dairəvidir, aşağı hissəsi getdikcə enliləşir. Sonluqda qalın metal halqa, boru ilə lələk arasında konus formalı almacıq var. Ümumi uzunluğu 43,5 sm, lələyin uzunluğu 24,5 sm, borunun uzunluğu 18,5 sm, lələyin eni 3,7 sm, borunun diametri (ən enli) 3,5 sm, (ən dar) 1,5 sm, metal halqanın qalınlığı 0,3 sm-dir.

## *Ədəbiyyat*


1. Мамедов С.Г. История войн и военного искусства Азербайджана (с древнейших времен до XVII века) . Б, 1997

2. Асланов Г.М., Вахидов Р.М., Ионе Г.Н. Древний Мингечаур. Баку, 1959.

3. Əhmədov S.Ə. Azərbaycanın XIV-XVI əsrlərdə əlbəyaxa döyüş silahları. ("Hərbi bilik", 1998 № 3, səh.84-87).

4. Əhmədov S.Ə. III-VIII əsrlərdə Qafqaz Albaniyasının qoşunları. ("Hərbi bilik", 1996 № 5, səh.78-80).

5. Юнусов А.С. История военного дела в Азербайджане в IX – начале XIII вв. (Рукопись к.и.н., Б., 1986).

6. Денисова М.М., Пертнов М.Э., Денисов Е.Н. Русское оружие XI-XIX вв. М, 1953.

7. Əhmədov S.Ə. XIII-XV əsrlərdə Azərbaycanda hərb sənəti tarixi. (T.e.n. avtoreferatı, B., 2001).

8. Романовски Д. Краткая история холодного оружия в Иране (перевод Дадашева А.).

9. Əhmədov S.Ə. e.ə. XIII – E.ə. VIII əsrlərdə Azərbaycanda silahlar (Mingəçevir qazıntıları əsasında). ("Hərbi bilik", 1997 № 2, səh.78-81).

10. Худяков Ю.С. Вооружение центрально – азиатских кочевников в эпоху раннего и развитого средневековья. ***Отв. ред.*** В.Е. Медведев. Новосибирск, наука 1991.

11. Azərbaycan miniatürləri. K.Kərimov. (Bakı, "İşıq" 1980).